**Təchizat zəncirimizdə etibarlı mənbələrin seçilməsi fəaliyyəti**

# Təchizatçılar üçün İşgüzar Davranış Kodeksi



Mündəricat

**3 "LafargeHolcim"də Sabit Satınalmaya Giriş**

**4 Təchizatçılar qarşısında öhdəliklərimiz**
İşgüzar Davranış
Kateqoriyaların Təşkili və Təchizatçılarla Münasibətlərin idarə Edilməsi

**5 Təchizatçılardan Gözləntilərimiz** Sağlamlıq və Əməyin Mühafizəsi
Təhlükəsizlik
İş Şəraiti
Birləşmə Azadlığı və Əvəzçıxmanın olmaması
Məcburi Əmək
Uşaq Əməyi
Qeyri-ayrı seçkilik
Ekoloji Qanunvericiliyə Uyğunluq
Ekoloji Təsirlərin İdarə Edilməsi
Rüşvətxorluq və Korrupsiya
Rəqabət Qanunları

**07 Fəaliyyət Şərtləri**

"LafargeHolcim"də Sabit Satınalmaya Giriş

"LafargeHolcim" özünün bütün tərəfdaşları üçün dəyər yaratmaq öhdəliyi daşıyır. Sabit inkişaf prinsipləri – dəyərin yaradılması, sabit ekoloji fəaliyyət və korporativ ictimai məsuliyyət bizim biznes strategiyamızın tərkib hissəsidir.

Bizim davamlı inkişafa yanaşmamız Təchizatçılarımızla işləmək üsulunu ehtiva edir[1].

“LafargeHolcim”də davamlı satınalma Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Sazişi ilə mühafizə edilən standartlara əsaslanır.

Biz davamlı inkişafı öz satınalma strategiyamıza, gündəlik əməliyyatlarımıza və Təchizatçılarla münasibətlərimizə daxil edirik. “LafargeHolcim” şirkətlər qrupuna daxil olan bütün şirkətlərdən onların təchizat zəncirində Sağlamlıq və Əməyin Təhlükəsizliyi, ictimai məsuliyyət və ətraf mühitə aid olan risklərin müəyyən edilməsi, qarşısının alınması və idarə edilməsi tələb olunur.

[1] Təchizatçılar termini mal və xidmət təchizatçılarını nəzərdə tutur. Podratçılar üçün eyni məsələləri tənzimləyən daha dəqiq müddəalar müəyyən edilə bilər və ya mal təchizatçıları ilə bağlanan müqavilələrdə qeyd edilə bilər. Bu kodeksdəki heç bir müddəa hər hansı daha dəqiq müddəanı əvəz etmək üçün nəzərdə tutulmamışdır.

## 2. Təchizatçılar qarşısında Öhdəliklərimiz

“LafargeHolcim” davamlı inkişaf öhdəliyi daşıyan Təchizatçılarla uzunmüddətli münasibətlər qurmaq niyyətindədir. Bizim hədəfimiz şirkətlər qrupu və müştərilərimiz üçün səmərəli satınalma təmin etmək üçün Təchizatçılarla əməkdaşlıq etmək və təchizat zəncirinin etibarlı şəkildə idarə edilməsini nümayiş etdirməkdir.

### İşgüzar Davranış

Satınalma vəzifələrinin və öhdəliklərinin yerinə yetirilməsi zamanı “LafargeHolcim”in bütün əməkdaşlarından şirkətin yüksək hüquqi, etik və mənəvi standartlar üzrə öhdəliklərini Təchizatçılarla bölüşmək tələb olunur. Bizim daxili təlimatlarımız satınalma işlərində nəzakət, maraqların toqquşması, korrupsiya, rəqabət qanunu və məxfi məlumatlar üzrə davranış normaları müəyyən edir. “LafargeHolcim”in əməkdaşları davamlı olaraq etik davranış məsələlərini nəzərə almağa və müzakirə etməyə təşviq edilir.

**Kateqoriyaların Təşkili və Təchizatçılarla Münasibətlərin İdarə Edilməsi**

“LafargeHolcim” kateqoriyaların təşkilini həyata keçirmək və Təchizatçılarla münasibətləri idarə etmək üçün metodologiyalar hazırlamışdır. Bu təlimatlar bizim siyasətlərimizə və dəyərlərimizə uyğun olaraq ədalətli, rəqabətədavamlı və şəffaf danışıqlar prosesini təmin edir.



3. Təchizatçılarımızdan Gözləntilərimiz

“LafargeHolcim” ictimai, ekoloji və Sağlamlıq və Əməyin Təhlükəsizliyi üzrə yüksək standartlara cavab vermək öhdəliyi daşıyır və biz eyni yanaşmanı öz Təchizatçılarımızdan da gözləyirik. Təchizatçılar yerli və milli qanunlara və normalara riayət etməlidirlər. Bundan başqa biz Təchizatçılardan aşağıdakı standartlara cavab vermələrini gözləyirik[2].

**Sağlamlıq və Əməyin Mühafizəsi və Təhlükəsizlik**

**Sağlamlıq və Əməyin Mühafizəsi**

Təchizatçılar öz əməkdaşlarını və podratçılarını təhlükəsiz və sağlam iş yeri ilə təmin etməlidirlər. Təchizatçılar Sağlamlıq və Əməyin Mühafizəsi sahəsində yerli və milli qanunlara və normalara riayət etməli və yerli səlahiyyətli orqanlar tərəfindən verilmiş icazələrə və lisenziyalara sahib olmalıdırlar. Təchizatçılar müvafiq təhlükəsizlik infrastrukturu və avadanlıqları ilə yanaşı sənədləşdirilmiş təhlükəsizlik siyasətlərinə və/ya prosedurlarına malik olmalıdırlar. Sağlamlıq və Əməyin Mühafizəsi üzrə yüksək riskə ciddi yanaşmadığı müəyyən edilən Təchizatçılar Sağlamlıq və Əməyin Təhlükəsizliyi üzrə təsdiq edilmiş idarəetmə sisteminin yaradılması istiqamətində tədbirlər görməli və davamlı inkişaf nümayiş etdirməlidir. “LafargeHolcim” sahələrində olarkən, Təchizatçılar “LafargeHolcim”in qüvvədə olan siyasətlərinə və göstərişlərinə tam şəkildə riayət etməlidirlər.

**Təhlükəsizlik**

Təchizatçılar öz sahələrində, xüsusi ilə konflikt ərazilərində iş görən əməkdaşlarını, podratçılarını, həmçinin öz əmlaklarını mühafizə etmək üçün bütün zəruri təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təmin etməlidirlər. Xüsusi olaraq, fövqəladə vəziyyətlərə qarşı vaxtında və effektli tədbir görə bilmək üçün təchizatçılardan praktikada tətbiq edilə bilən krizis idarəetmə siyasətinə malik olmaq tələb olunur.

**İş Şəraiti**

Təchizatçılar münasib və lazımi iş şəraitini təmin etməlidirlər. İşçilərə ən azı yerli sənaye üzrə mövcud maaş və ya milli qanunla müəyyən edilmiş minimum əmək haqqı arasında daha yüksək olan ödəniş və yerli hüquqi standartlara uyğun sosial təminat müavinətləri ödənilməldir. Əməliyyatların aparıldığı ölkədə qanunla minimum əmək haqqı müəyyən edilməmişsə, ədalətli və layiqli şərtlər tətbiq edilir və təchizatçılar öz işçilərinə ödəniş edərkən ölkədəki ümumi əmək haqqı səviyyəsini, yaşayış minimumunu, sosial təminat müavinətlərini və müvafiq yaşayış standartlarını nəzərə almalıdırlar.

**Birləşmək Azadlığı və Əvəzçıxmanın olmaması**

Təchizatçılar işçilərin birləşmək azadlığına müdaxilə etməməlidirlər. Sifarişçinin nümayəndələri sifarişçi hüquqlarından istifadə etməyə, şikayətlərin bildirilməsinə, həmkarlar ittifaqı tədbirlərində iştiraka və ya qanun pozuntusu üzrə şübhələrin bildirilməsinə görə ayrı seçkiliyə və ya müqavilənin xitam edilməsinə məruz qalmamalıdırlar.

[2] Standartlar Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Sazişinin prinsiplərinə əsaslanır

**Məcburi Əmək**

Təchizatçılar cərimə hədəsi ilə qeyri-könüllü əməkdən, habelə iş vaxtından artıq məcburi əməkdən, insan alverindən, borc asılılığından, məcburi məhbus əməyindən, qul və ya kölə əməyindən istifadə etməməlidirlər. Təchizatçılar mühacirlərin şəxsiyyəti təsdiq edən sənədlərini saxlamamalıdırlar.

**Uşaq Əməyi**

Təchizatçılar icbari təhsil yaşında olan uşaqları işə götürməməlidirlər. Yaşı 18-dən az olan və ya qanunla müəyyən edilmiş minimal yaşdan az olan uşaqlar işə götürülməməlidirlər.

**Qeyri-ayrı seçkilik**

Məşğulluqla əlaqəli qərarlar müvafiq və obyektiv meyarlara əsaslanmalıdır.
Təchizatçılar aşağıdakılar da daxil olmaqla, heç bir səbəbdən ayrı-seçkilik etməməlidirlər:
yaş, qabiliyyətsizlik, cins, seksual oriyentasiya, siyasi və ya digər fikirlər, etnik və ya sosial mənsubiyyət, yaxud din. Məşğulluqla bağlı qərarlar aşağıdakılarla məhdudlaşmır:
muzdlu əmək, vəzifə yüksəlişi, işçilərin işdən çıxarılması və yerdəyişməsi, təlim və bacarıqların artırılması, sağlamlıq və əməyin mühafizəsi, iş saatları və əməyin ödənilməsi kimi iş şərtləri ilə bağlı hər hansı siyasət.

**Ekoloji Qanunvericiliyə Uyğunluq**

Təchizatçılar ekoloji qanunvericiliyin tələblərini bütün səviyyələrdə (yerli, milli və beynəlxalq) nəzərə almalı və onlara riayət etməlidirlər. Özlərinin bütün fəaliyyətlərində onlar tələb olunan ekoloji icazələrə və lisenziyalara malik olmalı və ekoloji çətinliklərə qarşı profilaktik yanaşma sərgiləməlidirlər.

**Ekoloji Təsirlərin İdarə Edilməsi**

Təchizatçılar öz ekoloji təsirlərini sistematik şəkildə idarə etməli və aşağıdakılarla məhdudlaşmayan bir sıra məqamları nəzərə almalıdırlar: enerji, su, tullantı, kimyəvilər, havanın çirklənməsi və biomüxtəliflik
Həmçinin bu cür təsirləri azaltmaq üçün məqsədlər və hədəflər müəyyən etməlidirlər. Yüksək ekoloji təsirə malik olduğu müəyyən edilmiş Təchizatçılar təsdiq edilmiş Ekoloji İdarəetmə Sistemi istiqamətində tədbirlər görməli və davamlı inkişaf nümayiş etdirməlidir.

**Rüşvətxorluq və Korrupsiya**

Təchizatçılar qüvvədə olan bütün anti-korrupsiya qanunlarına və normalarına riayət etməli və bu məqsədlə rüşvətxorluğun, korrupsiyanın və yeyintinin hər hansı formasını tamamilə qadağan edən siyasətə malik olmalıdır. Təchizatçılar, xüsusi ilə özlərinin müştərilərlə və dövlət rəsmiləri ilə işgüzar fəaliyyətləri ilə əlaqədar olaraq rüşvət ödəməməli və ya hər hansı oxşar niyyətlərini (qeyri-qanuni geri ödəniş, işlərin sadələşdirilməsi üçün ödənişlər, böyük hədiyyələr və qonaqpərvərlik, bəxşişlər və ya ianələr) həyata keçirməməlidirlər. Təchizatlardan bütün işgüzar münasibətləri şəffaf şəkildə qurmaları tələb olunur və həmin münasibətlər onların işgüzar kitabçalarında və qeydlərində dəqiq şəkildə əks etdirilməlidir. Təchizatçılar rüşvət vermək kimi özlərinə icazə verilməyən işləri üçüncü tərəfə həvalə etməməlidirlər.

**Rəqabət Qanunları**

Təchizatçılar “LafargeHolcim” ilə bağladıqları müqavilənin icrası zamanı qüvvədə olan bütün rəqabət qanunlarına riayət etməlidirlər və bu məqsədlə bu cür qaydaların hər hansı şəkildə pozulmasını tamamilə qadağan edən siyasətə malik olmalıdırlar. Xüsusi olaraq, Təchizatçılar “LafargeHolcim” ilə bağladıqları müqavilədən irəli gələn sazişlərinə rəqabət qanunlarını poza biləcək hər hansı şərti daxil etməyə cəhd göstərməməlidirlər. Təchizatçılardan, həmçinin “LafargeHolcim” ilə təchizat münasibətlərinə dair kommersiya cəhətdən həssas olan hər hansı məlumatın üçüncü şəxslərə və ya əksinə ötürülməməsi üçün bütün zəruri profilaktik tədbirləri görmələri tələb olunur.

4. Fəaliyyət Şərtləri

Bu Davranış Kodeksi “LafargeHolcim”in bütün Təchizatçılarına şamil edilir və potensial və mövcud Təchizatçıların diqqətinə çatdırılır. Hazırlıq prosesinin bir hissəsi olaraq, yeni təchizatçıların bu sənəddə müəyyən edilmiş standartlara uyğunluğu qiymətləndirilməlidir. Mövcud Təchizatçılar təchiz edilən mallar və xidmətlərlə bağlı potensial sabitlik riskinə və “LafargeHolcim” ilə olan münasibətlərinə əsasən üstünlüyə malikdirlər.

Üstünlük verilən Təchizatçılar üçün, “LafargeHolcim” yerli satınalma funskiyaları ilə müəyyən edilmiş, özünü-qiymətləndirmə, faktların aşkarlanması və ya auditlər formasında risklərin müntəzəm qiymətləndirməsini aparır. “LafargeHolcim” bizim gözləntilərimizin necə qarşılanmasına və Təchizatçıların necə qiymətləndirilməsinə dair təlimatlar təmin edir.

Təchizatçı bizim tələblərimizə cavab vermədiyi təqdirdə, müəyyən edilmiş vaxt çərçivəsində (məsələnin ciddiliyindən asılı olaraq) düzəldici fəaliyyət planları hazırlanmalıdır və “LafargeHolcim” planların həyata keçirilməsinə nəzarət etməlidir. “LafargeHolcim” Təchizatçılara, öz imkanlarını artırmaqda və fəaliyyətlərini təkmilləşdirməkdə dəstək verə bilər. “LafargeHolcim” hazırkı Davranış Kodeksini dəfələrlə və qəsdən pozan və təkmilləşdirmə planlarını icra etməkdən imtina edən Təchizatçılarla münasibətlərinə xitam vermək hüququna malikdir. Tender prosesi zamanı “LafargeHolcim” yerli, milli və ya beynəlxalq qanunlara və ya normalara cavab verməyən Təchizatçıları kənarlaşdırmaq hüququna malikdir.



Tanış oldum ____________________

Şirkətin adı____________________

Məhsul şəxs ____________________

İmza__________________________

FSC
www.fsc.org
RECYCLED
Paper made from recycled material
FSC® C107139

**LafargeHolcim Ltd**
Züricherstrasse 156
8645 Jona
İsveçrə
www.lafargeholcim.com

© 2016 LafargeHolcim Ltd
27 yanvar 2016-cı il tarixli versiya

LafargeHolcim